# LYAMBLİOZ OLAN HAMİLƏ QADINLAR ARASINDA DAVRANIŞ XÜSUSİYYƏTLƏRİ

Qasımova G.M.

*Azərbaycan Tibb Universiteti. I mama-ginekologiya kafedrası. Bakı, Azərbaycan*

**Nəşr tarixi:** Dekabr 2019

***Əlaqə üçün məlumatlar:** Az 1022, Bakı, Bakıxanov 23; e-mail: medun91@mail.ru

# BEHAVIORAL FEATURES IN PREGNANT WOMEN WITH GIARDIASIS

Gasymova G.M.

*Azerbaijan Medical University, Department of Obstetrics and Gynecology II. Baku, Azerbaijan*

Publication date: December 2019

Contact information: Az 1022, Baku, Bakikhanov 23; e-mail: medun91@mail.ru

Aparılan epidemioloji müayinələr nəzərə alınmaqla, biz hamilə qadınların xarakterik və epidemioloji əhəmiyyətli davranış xüsusiyyətlərini müəyyən etmiş və əldə olunan məlumatları təhlil etmişik.

**Tədqiqat işinin məqsədi**: Lyamblioz olan hamilə qadınlar arasında davranış xüsusiy-yətlərin öyrənilməsi olmuşdur.

**Tədqiqat işinin material və metodları.** Hazırkı tədqiqat işində hamiləliyin gedişinin xarakterindən asılı olaraq lyambliozun müxtəlif klinik formalarında 18 yaşdan 45 yaşa qədər (orta yaş 28,42±4,8) və hamiləliyin 16-40 həftəlik müddətində olan, lyambliyalarla invaziyalaşmış 137 hamilə qadın müayinə edilmişdir. Kontrol qrupu 18 yaşdan 45 yaşa

qədər (orta yaş 25,42±0,8) anamnezdə protozoy invaziyası və klinik əlamətlər olmayan 45 hamilə qadın təşkil etmişdir. Alınmış nəticələrin statistik işlənməsi variasion statistikanın məlum metodu üzrə orta riyazi ədədin (M), xəta göstəricisini (m) təyin edilməsi ilə həya- ta keçirilmişdir.

**Tədqiqat işinin nəticələri.** Risk dərəcəsinə görə, davranış amillərini aşağıdakı qruplara bölmək olar. 1-ci qrupa təhlükəlilik dərəcəsinə görə uşaqlarla sıx təmas aid edilə bilər ki, bu da lyambliyaların asanlıqla ötürülmƏsi imkanı (24,1±3,6%) ilə şərtlənir. Bu amil insanın orqanizminə törədicinin daha asan və effektiv yoluxma yoludur və belə yüksək xəstələnməni təmin edir. 2-ci qrupa təhlükəlilik dərəcəsinə görə şəxsi gigiyena qaydalarına (bədənin, əllərin, paltarların, yatağın, qab-qacağın təmizliyi) riayət edil məməsi aiddir - 48,2±4,3%. Fekal-oral infeksiyalar və invaziyalar zamanı bu amillərin əhəmiyyəti hamıya məlumdur. 3-cü qrup təhlükəlilik dərəcəsinə mənzillərin gigiyenasının gözlənilməməsi, sosial-iqtisadi şəraitin təkmilləş dirilməməsi aiddir – 27,7±3,8%.